**Gəncədə fəaliyyət göstərən mağazada aşkarlanan nöqsanlara dair məlumat**

**(6 mart 2024)**

Agentliyin əməkdaşları tərəfindən Gəncə şəhəri, H. Əliyev küçəsi ilə P.Səmədov küçəsinin kəsişməsində fəaliyyət göstərən mağazada planlı yoxlama keçirilib. Yoxlama zamanı mağazada çalışan işçi heyətin ilkin və dövri tibbi müayinəyə cəlb olunmadığı, xüsusi geyimlə təmin edilmədiyi, məhsulların döşəmədən və divardan ara məsafəsi gözlənilmədən saxlanıldığı, eləcə də müvafiq təmizlik işlərinin aparılmadığı məlum olub. Eyni zamanda satışı həyata keçirilən müxtəlif çeşidli mənşəyi məlum olmayan məhsullar aşkar edilib.

Faktla bağlı sahibkar barəsində inzibati tədbir görülüb, icrası məcburi göstərişlər verilib.